# Hünər göstərib adını tarixə yazan Kənan

***Cəlilabadda boya-başa çatan Kənan İlqar oğlu Nadirli İkinci Qarabağ müharibəsində Vətən torpaqlarının azadlığı uğrunda misilsiz şücaət göstərərək 20 yaşında şəhidlik zirvəsinə ucalıb.***



Fəqət, Kənanın ömür yolu qısa oldu, amma onda Vətənə, torpağa ilahi bir sevgi yaşayır. Həmçinin əsl qəhrəman məktəbi olmaqla həm də gələcək nəsillərə örnək olacaq. Beləcə Cəlilabadın igid oğlu ürəklərdə özünə yer etməklə zaman-zaman unudulmaz.

Doğma Azərbaycanın qarşısında xüsusi xidmətləri olan, öz qəhrəmanlığı ilə dastan yazan Kənan Nairli həqiqi hərbi xidmətdə igidliyi, mərdliyi ilə ad qoyub. Qarabağın azadlığını düşünməklə keçirilən təlimlərə ürəklə qatılıb, həmişə uğur qazanıb. Bütün əsgərlərə onun kimi Vətəni sevməyi, nümunəvi xidmət etməyi bildiriblər.

Əsgərlikdən sonra düşmən əsarətində olan torpaqların azadlığı uğrunda döyüş əməliyyatlarına qoşulması üçün hər an, hər dəqiqə Ali Baş Komandanın əmrini səbirsizliklə gözləyib. Vətən müharibəsi başlanan günü könüllü olaraq Kənan yağı ilə döyüşə girib. Neçə-neçə ölümdirim savaşda düşmənə qan qusdurub. Qəhrəmanımız Füzuli, Qubadlı, Cəbrayıl istiqamətində gedən döyüşlərdə mərdliklə vuruşub və çoxlu sayda erməni yaraqlısını məhv edib. 2020-ci il noyabr 6-da Qubadlı istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində ömrünə son qoyulub. Kənan Nadirli Qarabağımızın mətin və xilaskar ərənləri kimi adını şanlı tariximizə yazdırıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları əsasında "Vətən uğrunda", Cəbrayılın, Qubadlının azadlığına görə medalları ilə təltif edilib.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

**Hürriyyət. - № 28. - 12 avqust. - 2025-ci il. - S. 10.**